# Həftəlik
# *Bülleten*



**110**
**26 Sentyabr 2025**

Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və lahiyələr
Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Azərbaycan və BƏƏ arasında "Şəhər içində şəhər" Konsepsiyasının inkişafı üzrə saziş imzalanıb.**

Azərbaycan və BƏƏ arasında "Şəhər içində şəhər" Konsepsiyasının inkişafı üzrə əməkdaşlıq sazişi imzalanıb.

Əməkdaşlıq sazişi I Beynəlxalq İnvestisiya Forumunda imzalanıb.

Belə ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və BƏƏ-də fəaliyyət göstərən "Modon" şirkətinin sədri Cassem Mohammed Bu Ataba Al Zaabi "Şəhər içində şəhər" Konsepsiyasının inkişafı üzrə Əməkdaşlıq haqqında Sazişi imzalayıblar.

5 milyard dolların investisiya yatırımı nəzərdə tutan konsepsiya Böyükşor gölü ətrafında sağlamlıq, ticarət, təhsil və mehmanxana obyektlərini əhatə edən müasir sahilyanı zonanın yaradılmasını nəzərdə tutur.

Sazişin imzalanma mərasimində Azərbaycan Baş nazirinin müavini Samir Şərifov və BƏƏ-nin investisiya naziri Mohamed Hassan Alsuwaidi iştirak edərək sənədin şahidi olublar.



**Azərbaycanda yeni zavodun tikiləcəyi yer və istifadəyə veriləcəyi tarix bəlli oldu.**

Qazaxıstanın “Fonte GreenMet Investments Fund” şirkəti ilə imzaladığımız müqavilə çərçivəsində illik 2 milyon ton istehsal gücünə malik isti briketlənmiş dəmir (HBI) zavodunun layihələndirilməsi, maliyyələşdirilməsi, qurulması və idarə edilməsi təmin olunacaq. Bunu “Daşkəsən Dəmir Filiz” MMC-nin (DDF) baş direktoru Ceyhun Əliyev Bakıda keçirilən 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində keçirilən brifinqdə deyib. O bildirib ki, zavod Şəmkir rayonunda inşa ediləcək. “Bu strateji əməkdaşlıq Azərbaycan–Qazaxıstan münasibətlərinin metallurgiya sənayesi sahəsində yeni səhifəsidir. Zavodun 2029-cu ilin əvvəlində istismara verilməsi planlaşdırıldığını deyən baş direktor istehsal prosesində müasir texnologiyalar, ekoloji baxımdan təhlükəsiz və dayanıqlı üsullar tətbiq olunacağını bildirib: “Ətraf mühitə zərərli təsirlərin minimuma endirilməsi və müasir, təhlükəsiz texnologiyaların tətbiqi DDF-in əsas iş prinsiplərindəndir. HBI zavodunun birbaşa reduksiya texnologiyası əsasında fəaliyyət göstərməsi planlaşdırılır. Bu texnologiya – ənənəvi domna sobalarından fərqli olaraq karbon emissiyalarının 60 faizədək azaldılmasını mümkün edir. Kömürdən istifadə edilən domna sobaları ilə müqayisədə burada təbii qazdan istifadə edilir. Həmçinin bu növ zavodlar gələcəkdə sıfır karbon emissiyasına nail olmaq üçün istehsalatda təbii qaz əvəzinə hidrogenə keçid etməyə imkan yaradır. Buna görə sözügedən texnologiya müasir dövrün tendensiyaları ilə tam ayaqlaşır”, - deyə Ceyhun Əliyev vurğulayıb.



**Laçında işğaldan sonrakı dövrdə yeni üç faydalı qazıntı yatağı balansa götürülüb.**

Laçın rayonu ərazisində işğaldan əvvəlki dövrdə 3 filiz, 36 qeyri-filiz yatağı olmaqla, ümumilikdə 39 faydalı qazıntı yatağı olub.

Qarabağ bürosu xəbər verir ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədr müavini Elçin Məcidov Ekoloji məsələlər üzrə İşçi qrupunun iclasında məlumat verib.

O qeyd edib ki, İşğaldan sonrakı dövrdə isə 1 qum-çınqıl və 2 yol tikintisinə yararlı dolğu materialı olmaqla ümumilikdə 3 faydalı qazıntı yatağı balansa alınıb.

"Yataqların istifadəyə verilməsi ilə bağlı ilkin mərhələdə qanunvericiliyə uyğun müraciətlər Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə ünvanlanır. Hazırkı dövrə qədər Laçın rayonu ərazisində 45 yer təkinin istifadəsi ilə bağlı müraciət komitəyə ünvanlanıb. Onlardan 30-na aidiyyəti üzrə razılıq verilib. 15 sahədə isə komitə tərəfindən razılıq verilməyib" - deyə o əlavə edib.



**Azərbaycanda asfalt və beton istehsalının həcmi məlum olub.**

Bu ilin yanvar-avqust aylarında Azərbaycanda 51,6 min ton asfalt istehsal edilib.

Bu barədə Dövlət Statistika Komitəsindən məlumat əldə edib.

Məlumata görə, əvvəlki ilin eyni dövrü ilə müqayisədə ölkədə asfalt istehsalı 5,9 min ton və ya 10,3% azalıb.

Eyni zamanda cari ilin yanvar-avqust aylarında Azərbaycanda 2,9 milyon ton beton istehsal edilib. Bu isə 2024-cü ilin eyni aylarındakı göstərici ilə müqayisədə 262 min ton və ya 8,2% azdır.

Qeyd edək ki, Azərbaycanda tikinti materiallarının istehsalı sahəsində 2025-ci ilin yanvar-avqust aylarında istehsalın ümumi dəyəri 911,6 milyon manat olmaqla, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,2% azalıb.



**Azərbaycanda mis konsentratı istehsalı 20 dəfədən çox artıb.**

Bu ilin yanvar-avqust aylarında Azərbaycanda 2 271 ton mis konsentratı istehsal edilib.

Bu barədə Dövlət Statistika Komitəsindən məlumat əldə edib.

Məlumata görə, mis konsentratı istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə 2 159 ton və ya 20,3 dəfə artıb.

Belə ki, ötən ilin yanvar-avqust aylarında Azərbaycanda 112 ton mis konsentratı istehsal edilmişdi.

Qeyd edək ki, cari ilin sentyabr ayının 1-nə ölkədə hazır mis konsentratı ehtiyatının miqdarı 179,5 ton olub.

Ümumilikdə, hesabat dövründə Azərbaycanda mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 25,7 milyard manat olmaqla, əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,9% azalıb.



**Təhlükə potensiallı tikinti obyektləri vahid dövlət reyestrində qeydiyyatdan keçiriləcək.**

Qazpaylayıcı şəbəkəyə qoşulan təhlükə potensiallı obyektlərin siyahısına daxil olan tikinti obyektləri təhlükə potensiallı obyektlər vahid dövlət reyestrində qeydiyyatdan keçiriləcək.

Bu, Nazirlər Kabinetinin "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"nda edilən dəyişiklkdə əksini tapıb.



**Azərbaycanda növbəti torpaq hərracları elan edilib.**

Oktyabrın 22-də Azərbaycanın regionlarında 10 torpaq müsabiqəsi və 19 hərrac keçirəcək.

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə (ƏMDX) istinadən xəbər verir.

Məlumata görə, hərraclar Dövlət Xidmətinin Sumqayıt, Ucar, Bərdə, Tovuz, Xaçmaz və Beyləqan ərazi şöbələrində olacaq. Müsabiqə və hərraclara müxtəlif bələdiyyə orqanlarına məxsus 29 torpaq sahəsi çıxarılacaq.

Hərraclar barədə ətraflı məlumatı buradan əldə etmək mümkündür.



**Bakıda 8 ayda yerinə yetirilmiş inşaat işlərinin göstəriciləri açıqlanıb.**

Bu ilin yanvar-avqust aylarında Bakı şəhərində yerinə yetirilmiş ümumi inşaat işlərinin 91,5 %-ini qeyri-dövlət tikinti müəssisələri yerinə yetiriblər.

Bu barədə Bakı şəhər Statistika İdarəsindən məlumat verilib.

Bildirilib ki, ötən 8 ay ərzində paytaxtın tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 86,5 %-ini inşaat, yenidənqurma və bərpa, 6,8 %-ini əsaslı təmir, 3,7 %-ini cari təmir, 3 %-ini isə sair tikinti işləri təşkil edib.

Qeyd edək ki, bu ilin yanvar-avqust aylarında Azərbaycanda tikinti müəssisələri tərəfindən (fərdi sahibkarlar nəzərə alınmaqla) yerinə yetirilmiş inşaat işlərinin 82,8 %-ini inşa, yenidənqurma və bərpa, 8 %-ini əsaslı təmir, 5,6 %-ini cari təmir, 3,6 %-ini isə sair tikinti işləri təşkil edib. Ümumi inşaat işlərinin 88,6 %-ini qeyri-dövlət mülkiyyətində olan tikinti müəssisələri yerinə yetiriblər.



**Dərnəgül bazarının arxasındakı evlər sökülür.**

Bakıda daha bir ərazidə fərdi yaşayış evlərinin sökülməsi ilə bağlı hazırlıq işlərinə start verilib. Bu dəfə söküntü Nərimanov rayonunun PY UA 38/10 ünvanında – Dərnəgül bazarının arxasında yerləşən fərdi yaşayış evlərini əhatə edəcək. Qeyd edək ki, paytaxtda qəzalı və istismar müddəti bitmiş evlərin söküntüsü təhlükəsizliyin təmin olunması və müasir şəhərsalma tələblərinin yerinə yetirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Məlumat üçün bildirək ki, Baş nazir Əli Əsədov Bakı şəhərinin sosial-iqtisadi inkişafı istiqamətində strateji əhəmiyyətli şəhərsalma təşəbbüslərinin dəstəklənməsi üzrə İşçi qrupun yaradılması barədə sərəncam imzalayıb. Eyni zamanda ilkin olaraq Bakı şəhərinin Böyükşor gölü ətrafında, Heydər Əliyev və Ziya Bünyadov prospektləri arasında yerləşən ərazilərinin, Heydər Əliyev adına Neft Emalı Zavodu ətrafında olan ərazilərinin dövlət-özəl tərəfdaşlığı modeli çərçivəsində razılaşdırılmış konseptual layihələr əsasında yenidən qurulmasının həyata keçirilməsi üçün investisiya qoyuluşuna zəruri şərait yaradılmasını, həmin layihələr üzrə investisiya müqavilələrinin şərtlərinin razılaşdırılmasını və digər zəruri tədbirlərin görülməsini təmin etmək də İşçi qrupuna həvalə edilib. Dərnəgül bazarının da məhz bu proses çərçivəsində söküləcəyi bildirilib.



**Hörmətli sahibkarlar!**

Azərbaycandakı Dubay Beynəlxalq Palatası vasitəsi ilə Dubayda fəaliyyət göstərən "Balmer Lawrie" şirkəti Azərbaycanda əməkdaşlığın qurulmasında marağındadır. "Balmer Lawrie" ilə maraqlanan üzvlərimiz daha ətraflı məlumat üçün ATMİA ilə əlaqə saxlaya bilərlər: 0102500324

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: INTERNATIONAL SMART BUILDING TECHNOLOGIES, ELECTRIC LIGHTING & ELECTRONICS EXHIBITION 2025**

**Tarixlər: 01 - 04 oktyabr 2025-ci il,**

**Məkan: İstanbul Sərgi Mərkəzi / İstanbul Fuar Mərkəzi / CNR Expo, İstanbul (Türkiyə)**

Beynəlxalq Ağıllı Bina Texnologiyaları, Elektrik İşıqlandırma və Elektronika Sərgisi. Ağıllı evlər və binalar insanlara daha rahat, təhlükəsiz və istifadəçi dostu həyat tərzi təklif edərkən fərdi yaşayış standartlarını yaxşılaşdırmağa imkan verir.

**Sərginin adı: IHE - IRAN HVAC EXPO 2025**

**Tarixlər: 04 - 07 oktyabr 2025-ci il,**

**Məkan: Tehran (İran) Tehran Daimi Sərgisi**

İran HVAC&R sərgisi. IRAN IHE soyutma, isitmə, ventilyasiya, kondisioner və soyuducu sahəsində fəaliyyət göstərən müəssisələr üçün ən son texnologiyalar, əlaqəli sektorlardakı biznes inkişafları haqqında məlumat əldə etmək üçün fürsətdir.

**Sərginin adı: AQUA-THERM TASHKENT 2025**

**Tarixlər: 07 - 09 oktyabr 2025-ci il**

**Məkan: Uzexpocentre, Daşkənd (Özbəkistan)**

Beynəlxalq istilik, havalandırma, kondisioner, su təchizatı, ətraf mühit texnologiyaları, bərpa olunan enerjilər sərgisidir.

**Sərginin adı: POWER EFFICIENCY. ENERGY-SAVING. INNOVATIVE TECHNOLOGIES AND EQUIPMENT 2025**

**Tarixlər: 07-10 oktyabr 2025-ci il,**

**Məkan: ExpoForum Konqres və Sərgi Mərkəzi, Sankt-Peterburq (Rusiya)**

Enerji resurslarının nəqlində və istilik və elektrik enerjisinin istehsalında enerji səmərəliliyi və enerjiyə qənaət, Mühəndislik sistemlərində enerjiyə qənaət texnologiyası, Enerji səmərəli avadanlıq, cihaz, məhsul və materiallar.

**GƏNCƏ ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN TABELİYİNDƏ "PARK-XİYABAN" İSTİSMAR VƏ MÜHAFİZƏ İDARƏSİ TENDER ELAN EDİR.**

Gəncə Şəhər İcra Hakimiyyətinin Tabeliyində "Park-xiyaban" İstismar Və Mühafizə İdarəsi açıq tender elan edir.
Elanda Parkın ərazisində cari təmir işlərinin,müxtəlif avadanlıqların alınması və quraşdırılmasının satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Kamil İsgəndərov, Baş mühasib
Email: park.xiyaban@mail.ru
Əlaqə telefonu: +994 55 256 05 00



## AZƏRBAYCAN DÖVLƏT SU EHTİYATLARI AGENTLİYİ "REGİONAL SU MELİORASİYA XİDMƏTİ" PUBLİK HÜQUQİ ŞƏXSİN NAXÇIVAN SU MELİORASİYA SİSTEMLƏRİNİN İSTİSMARI İDARƏSİ TENDER ELAN EDİR.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi "Regional Su Meliorasiya Xidməti" Publik Hüquqi Şəxsin Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı idarəsi tender elan edib.
Elanda Heydər Əliyev su anbarının Sağ Sahil və Sol Sahil kanalının təmiri üçün mal-materialların satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Vüsal Talıbov, Şöbə müdiri
Email: office@ndsea.gov.az
Əlaqə telefonu: +994 36 545 18 60



**"LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"Lənkəran Dövlət Universiteti" publik hüquqi şəxsi açıq tender elan edir.
Elanda 2 saylı tədris korpusu , Elmi kitabxana cari təmir işləri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Tural İsmayıllı, Satınalmaların təşkili və təchizat şöbəsinin müdiri
Email: tural.ismayilov.98@list.ru
Əlaqə telefonu: +994 70 204 89 00



**"İRİ ŞƏHƏRLƏRİN BİRLƏŞMİŞ SU TƏCHİZATI XİDMƏTİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxsi açıq tender elan edir.
Elanda Tikinti sahəsi və yol döşəməsi üçün lazım olan mal-materialların satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Məmmədyar Musayev, Satınalmaların təhlili və müqavilələrin idarə olunması şöbəsi
Email: mammadyar.musayev@azersu.az
Əlaqə telefonu: +994 12 431 47 67 (87)



**NƏSİMİ RAYON MÜHAFİZƏ İDARƏSİ TENDER ELAN EDİR.**

Nəsimi Rayon Mühafizə İdarəsi açıq tender elan edir.
Elanda Nəsimi Rayon Mühafizə İdarəsinin inzibati binasında və nizami hissəsində cari təmir işləri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Vasif Aslanov, Baş mühasib
Email: nesimi.muhafize@mail.ru
Əlaqə telefonu: +994 12 441 02 92



**AZƏRBAYCAN RESPUBLİKASI QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ MƏNZİL İSTİSMAR DEPARTAMENTİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Qaçqınların Və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi Mənzil İstismar Departamenti açıq tender elan edir.
Elanda Bakı şəhəri, Abşeron və Füzuli rayonlarında salınmış məcburi köçkün qəsəbələrində yerləşən fərdi yaşayış evlərinin və mənzillərin təmiri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Fariz Abbasov, Sektor müdiri
Email: fariz.abbasov@idp.gov.az
Əlaqə telefonu: +994 12 430 15 30





**www.atmia.az**